*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 464-469*

https://doi.org/10.62837/2025.7.464

**İSMAYILOVA GÜNAY ARİF QIZI**
*Doktorant*
*Tərcümə və filologiya kafedrası*
*Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71*
*gunay.ismayilova@au.edu.az*

# S.MOEMİN ROMANLARINDA ŞƏXSİYYƏT PARÇALANMASI VƏ ANTİHƏQİQƏT (CULİYA VƏ ÇARLZ STRİKLƏND OBRAZLARI ƏSASINDA)

XIX əsrin sonu – XX əsrin əvvəllərində sənətkar haqqında romanın baş qəhrəmanı sənət adamları – yazıçılar, aktyorlar, memarlar, rəssamlar idi. İncəsənət və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında fikirlərin inkişafına töhfəni O. Uayld (Oscar Wilde, 1854-1900), C.Qolsuorsi (John Galsworthy, 1867-1933), R.Kiplinq (Rudyard Kipling, 1865-1936) və S.Moem təqdim etdi. S.Moem yaradıcılığında bu mövzunun inkişafına B.Spinoza, A.Şopenhauer, F.Nitsşe, A.Berqson və Z.Freyd kimi görkəmli mütəfəkkirlərin əsərləri əhəmiyyətli dərəcədə təsir göstərmişdir, onların ideyaları yazıçının ideya-yaradıcılığının əsasını təşkil etmişdir.

XIX əsrin ikinci yarısından bu filosoflar həyatı kor-koranə bir irrasionallıq kimi qəbul edərək, buna ancaq sənətin köməyi ilə qarşı çıxa biləcəyinə inanırdılar. XIX-XX əsr yazıçıları üçün "*Dünyanı dəyişən yaradıcı insanlardır*" fikri əsas ideoloji fikir olaraq qəbul edilmişdir.

Artur Şopenhauer sənəti və yaradıcılığı insanın daxili dünyasının ifadəsi kimi görürdü. Onun fikrincə, sənət həm də bəlalardan xilas olmaq vasitəsi kimi də fəaliyyət göstərir və estetik təcrübə insanı müvəqqəti olaraq həyatın ağrılarından xilas edə bilər.

F.Nitsşe "Əxlaqın genealogiyasına doğru" (1887) əsərində yaradıcı fərdin özünü ictimai norma və dəyərlərdən azad edərək özünü ifadə etmək və yeni dəyərlər yaratmaq qabiliyyətini vurğulayır [4, s.36].

XIX əsrin sonu XX əsrin əvvəllərində ingilis yazıçılarının yaradıcı şəxsiyyətə bədii təxəyyül obyekti kimi müraciəti müxtəlif baxış və üslub ustaları üçün xarakterikdir. Musiqiçi, alim, heykəltəraş, rəssam, şair obrazı əsrin əvvəllərindəki əsərlərdə müəllifin niyyətindən asılı olaraq fərqli şəkildə əks olunurdu. Çox vaxt o, ictimai həyat normalarına sığmayan, o dövrün ictimai rəyi və estetik zövqü ilə razılaşmayan qeyri-adi şəxsiyyət obrazında çıxış edirdi. İncəsənət qeyri-standart düşünən insan üçün bir növ sığınacaq, yararsız reallıqdan qurtuluş forması oldu.

S.Moemin personajları cəlbedici və çirkin xüsusiyyətləri birləşdirir, bu da onları son dərəcə reallaşdırır. S.Moemin qəhrəmanları, ilk növbədə, qeyri-adi tale və xarakterli insanlardır: estetika və mənəviyyata meydan oxuyur, mütləq həqiqəti

anlamağa çalışırlar. Bunlara Dirk Stryovdan başqa heç kimin anlamadığı, özünü yaradıcılığa həsr etmək üçün dünya ilə əlaqələrini kəsən rəssam Strikländ; reallığın real təsvirinə diqqət yetirən və buna görə başqalarının təzyiqinə məruz qalan yazıçı Edvard Driffild; həyatı, o cümlədən gündəlik həyatı heyrətamiz aktyorluqla dolu olan eyni zamanda qəhrəmanın özünü şəxsiyyətsizləşdirdiyi Culiya Lembert aid idi.

S.Moemin "Teatr" əsərində sənət və şəxsi həyat arasındakı gərginlikləri, teatr dünyasında mövcud olan ikiüzlülüyü, şöhrət və şəxsi məmnuniyyət axtarışlarını təsvir edir. Culiya Lembert obrazı həm aktrisa, həm də qadın olaraq həyatını və sənətini tarazlamaq üçün böyük daxili çətinliklərdən keçir. Bu əsər təkcə teatrın səhnə arxası həyatını deyil, həm də sənətkarın şəxsi həyatının kompleksliyini, onun sənətə olan bağlılığı və həyatla mübarizəsini göstərir. Bu əsərdə baş qəhrəman Culiya Lembertin xarakteri və onun sənət ilə şəxsi həyat arasındakı təzadları açıq şəkildə göstərilir. Culiya, sahibləndiyi teatr səhnəsində müstəsna bir istedad sərgiləsə də, şəxsi həyatda keçirdiyi böhranlar və təbəddülatlar onun ikili xarakterini dərinləşdirir. Tamaşaçıların heyranlığını qazanmış, teatrın sevimlisi olan Culiya, öz istedadının dəyəri olaraq mütəhərrik bir qiymət ödəyib – o, oynadığı rollar arasında itmişdir. Bununla yanaşı, onun istedadına heyran qalanlar bir an belə inanmırdılar ki, *"o, yalnız səhnədə olduğu iki-üç saatı oynayır"* [3, s.146]. Əslində olan isə onun canlandırdığı personaj bütün gün içində yaşayırdı.

Y.Lotmanın sərhədlər nəzəriyyəsi, mədəniyyətlərarası sərhədlərin qarşılıqlı təsirini və bu sərhədlərin necə keçildiyini izah edir. "Teatr" romanında, sənət və reallıq arasındakı sərhədlərin keçilməsi, personajların daxili dünyalarını və xarici dünyalarını birləşdirir. Culiya Lembertin həyatı və sənəti arasındakı sərhədlərin keçilməsi, onun şəxsiyyətinin çoxqatlılığını və kompleksliyini göstərir. [1]

S.Moem həm də Culiya kimi sənətkarların real həyat və səhnə arasındakı sərhədləri necə itirdiyini, hətta bu itkinin onlara şəxsi həyatlarında nə qədər böyük çətinliklər yaşatdığını vurğulayır. Əsərdə baş qəhrəman Culiya Lembert həm sənətkar, həm də qadın olaraq inkişaf edən bir xarakterdir. O, teatr səhnəsindəki rolu ilə şəxsi həyatı arasındakı ziddiyyətləri özündə birləşdirərək öz gücünü, zəifliklərini və komplekslərini araşdırır. İllərlə teatr sənətində qazandığı şöhrət və yüksək status onu xarici görünüşdə güclü göstərsə də, şəxsi həyatında zərif və daxili ziddiyyətlərlə doludur.

Postmodernist ədəbiyyatda istehza və gerçəklik anlayışının parçalanması, əsərin həm forması, həm də məzmunu ilə oynayaraq oxucuya və ya tamaşaçıya "həqiqət" məfhumunu bir daha düşünmək imkanı verir. Bu xüsusiyyətlər "Teatr" əsərində Culiya Lembertin davranışında xüsusilə ön plana çıxaraq S.Moemin teatr mühitinə, yüksək təbəqəyə istehzasını özündə ehtiva etmişdir.

Culiyanın hər yerdə bir tamaşa sərgiləməsi həm də gerçəkliyin parçalanmasını simvollaşdırır. Həqiqət və reallıq onun üçün qətiyyətlə bir şey deyildir, çünki hər şey tamaşanın bir hissəsidir və hər vəziyyət üçün müxtəlif rollar

vardır. Beləliklə, Culiya gerçəkliyi tamamilə unutmuş və özünü ona verilmiş rolların ardıcıl dəyişmələri ilə təyin etmişdir. Postmodernizmin əsas mövzularından biri də gerçəkliyin yalnız subyektiv, yəni hər kəs üçün fərqli bir forma almasıdır və Culiyanın öz gerçəkliyini hər yerdə oynadığı rollarla müəyyən etməsi bunu təsdiq edir.

S.Moemin "Ay və qara qəpik" əsərindəki Strikland obrazı şəxsiyyətində, onun əsla adi etik standartlara uyğun gəlməyən davranışları və hədəfləri ilə ənənəvi "sənətkar ideyası"nı sarsıdır. Ənənəvi sənətkar obrazı, cəmiyyətin yüksək mədəniyyətini, estetik dəyərləri, etik standartları qoruyan, insanları düşünməyə və hiss etməyə yönəldən bir şəxs kimi təsvir edilir. Sənətkar, öz işində dərin bir insanlıq, əxlaq və ədalət anlayışına sahib olmalıdır. Onun antitipik davranışları əsasında qeyd etmək olar ki, Strikland, bu ənənəvi təsvirə zidd bir şəkildə, əxlaqi prinsipləri sıx-sıx pozur. O, maliyyə uğuru, şöhrət və şəxsi maraqlarını hər şeydən üstün tutaraq, cəmiyyətin gözləntilərinə qarşı çıxır. Məsələn, onun özünü "sənətçi" adlandırması, amma bunun arxasında yalnız şəxsi mənfəət güdməsi, onu adi etik standartlardan uzaqlaşdırır. İstismar və manipulyasiyadan istifadə edərək Strikland, başqalarının duyğularını, hətta istismar edərək, öz sənətini formalaşdırmağa çalışır. O, başqalarının ağrı və çətinliklərindən faydalanaraq, öz işini təqdim edir. Bu, onu sənətkar deyil, daha çox bir manipulyator obrazına çevirir. Onun bu davranışları, cəmiyyətin etimadını qazanmaq üçün nəzərdə tutulan əxlaqi prinsiplərlə üst-üstə düşmür. Striklendin davranışları, sənətin siyasətdən ayrı bir sahə olmadığını, əksinə, sənətin də siyasi və sosial məsuliyyət daşıdığını göstərir. Onun bu yanaşması, sənətçinin cəmiyyətdəki rolunu şübhə altına alır və ənənəvi sənətkar ideyasını sarsıdır. S.Moem, Striklendin simasında həyatın hər anına istehzalı bir ironiya ilə yanaşır. O, oxucunu Striklendin davranışları ilə üzləşdirərək, ənənəvi sənətkar anlayışının nə qədər köhnəldiyini və onun əslində cəmiyyətin dəyərlərini əks etdirməkdəki rolunu sorğulamağa dəvət edir. Bu, S.Moemin "Ay və qara qəpik" əsərinin mərkəzi tənqidi tonlarından biridir. Bu baxımdan S.Moem Strikland vasitəsilə ənənəvi sənətkar ideyasını sarsıdır, onu bir antitipik şəxsiyyət kimi təqdim edir. Bu, həm cəmiyyətin gözləntilərini, həm də sənətkarın özünü daha dərindən düşünməyə, qiymətləndirməyə və müzakirə etməyə çağırır. Striklendin həyatı və əməlləri oxucunu nə qədər heyrətləndirsə də, bir o qədər də onunla empatiya qurmaqda çətinlik çəkir, çünki onun şəxsiyyəti istehza dolu bir güzgü vasitəsilə təqdim olunur. S.Moem, cəmiyyətin ona qarşı yaratdığı gözləntilərlə sanki "oynayaraq" Striklendin həyatını ironiya ilə təsvir edir. Bu, postmodernist istehzaya dərin təməl qazandırır və əsərin çoxsəviyyəli mənalarının önünü açır. Romanda S.Moemin, sənətkarın yaradıcılıq hissinin bütün ictimai təsirlərdən kənarda olduğu fikrini ifadə etmək səyini görmək olar. Bu mərhələdə Strikland tamamilə emosional və laqeyd görünür. Təhkiyəçinin də etiraf etdiyi kimi, "*Özünə, ətrafına bu qədər laqeyd olan ikinci bir adam görməmişəm*" [3, s.119].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 464-469*

"Teatr"da olduğu kimi, S.Moemin "Ay və qara qəpik"də də mərkəzi obrazın cəmiyyətdən qopması və öz doğruluğuna olan inancı reallığın parçalanması ilə izah olunur. Striklǝndin rəngkarlığı və həyatı oxuculara çox fərqli bucaqlardan təqdim edilir; hər bir perspektiv isə öz subyektiv "doğruluğuna" malikdir. Həmçinin, S.Moemin təhkiyəçi vasitəsilə gerçəkliklə oyunu, oxucuda qəribə təəssüratlar yaradır, bu da əsərin əsas postmodernist xüsusiyyətlərindən biridir. S.Moem hər kəsi qəribə, bəlkə də başa düşülməyəcək qədər fərqli motivlərlə hərəkət edən bir dünya daxilində təsvir edir. Çarlz Striklǝndin sənətkar və ironiya simvolu kimi portretinə diqqət yetirdikdə qeyd etmək olar ki, Striklǝndin xarakteri postmodernist ədəbiyyatda özünə yer alan "antihəqiqət" arxetipinin nümunəsidir. Striklǝndin həyat tərzi, mənəvi və etik standartlara meydan oxuması onun ənənəvi sənətkar obrazından uzaq bir şəkildə formalaşmasına səbəb olur. Çünki o, özünü cəmiyyətin əxlaqi dəyərlərinə uyğunlaşdırmır və əksinə, sırf sənətə həsr olunmuş bir "gerçəkliyi" seçir.

Bu xüsusiyyətlər Striklǝndin "antihəqiqət" simvolu kimi dərk edilməsinə yol açır: onun həyatı və seçimləri sosial gözləntilərə, "normal" və ya qəbul edilmiş sənətkar davranışına uyğunsuzluq göstərir. O, sənəti mənəvi və ya estetik təkmillik vasitəsi kimi deyil, şəxsi ifadə və bənzərsiz təcrübələr vasitəsi ilə izah edir. Bu da "antihəqiqət" arxetipinə xidmət edir, çünki o, sosial dəyərlər qarşısında şəxsiyyəti və sənəti üçün qeyri-adi bir yol seçir, cəmiyyətin gözləntilərinə ironiya ilə yanaşır və öz dəyərli hesab etdiyi gerçəklikdən kənar, fərqli bir dünyada yaşayır.

"Antihəqiqət" arxetipi postmodernist ədəbiyyatda tez-tez təsvir edilən, ənənəvi və ya obyektiv həqiqət anlayışlarına meydan oxuyan, onları sorğulayan bir simvoldur. Bu arxetip, hadisələrə, xarakterlərə və ya əsas mövzulara bağlı "həqiqəti" müəyyənləşdirmə cəhdlərindən imtina edərək hər şeyin çoxşaxəli və nisbi olduğunu vurğulayır. Postmodernizmdə "antihəqiqət" konsepsiyası bəzən reallığın parçalanması və ya təhrif edilməsi kimi də anlaşılır, çünki bu cür ədəbiyyat obyektiv bir həqiqəti deyil, subyektiv təcrübələri və fərqli baxışları ön plana çıxarır.

"Antihəqiqət" arxetipində olan personajlar, adətən, cəmiyyətin qəbul etdiyi dəyərləri, əxlaq və ya etik prinsipləri rədd edir və öz unikal yollarını izləyirlər. Bu personajlar sosial normalara uyğun gəlməyən davranışlar və düşüncə tərzləri ilə seçilirlər və həyatlarına dair "düzgün" seçimləri qəbul etmirlər. Çarlz Strikländ kimi qəhrəmanlar hər kəsin təqdir etdiyi və ya öz gözləntilərini yerləşdirdiyi ənənəvi sənətçi obrazını təhrik edərək daha kompleks və qeyri-adekvat bir dünyagörüşü sərgiləyir. Belə personajlar vasitəsilə əsərlər oxucuları obyektiv həqiqətin çatışmazlığını düşünməyə və reallığı yalnız şəxsi perspektivlərdən qəbul etməyə çağırır. Bu, öz növbəsində, həm dərin ironiya yaradır, həm də ənənəvi dəyərlərə meydan oxuyan bir güzgü tutaraq cəmiyyətin "həqiqət" anlayışını sual altına qoyur. O, bir sənətkar kimi cəmiyyətdən qopmuş, öz doğruluğunu qavramış, lakin əxlaq və humanist dəyərləri inkar edən bir obrazdır. Burada S.Moem, sənətkarı "əsl sənətkar kimdir?" sualı ətrafında bir növ istehzalı şəkildə təhlil edir. Strikländ, cəmiyyətin

sənətkar şəxsiyyətinə qoyduğu maskalardan imtina edir, bu isə əsərdə onu ironiya və istehza obyektinə çevirir.

1. Лотман, Ю.М. Семиосфера / Култура и взрыв – Санкт-Петербург, – Искусство – СПБ – 2000. – 390 с.
2. Moem, U.S. Ay və qara qəpik / U.S.Moem. – Bakı: Qanun Nəşriyyatı, – 2012. – 256 s.
3. Moem, U.S. Teatr. Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.
4. Nietzsche F.W. the Composition [in volume 2] / F.Nietzsche. – Albany Records, – v. 2. – June 1, 1996. – 226p.
5. Kermode, F.P. Modern British Literature / Hollander, J. – Oxford University Press, – 1973. – 713 p.

**İsmayılova Günay Arif qızı**

**S.MOEMİN ROMANLARINDA ŞƏXSİYYƏT PARÇALANMASI VƏ ANTİHƏQİQƏT (CULİYA VƏ ÇARLZ STRİKLƏND OBRAZLARI ƏSASINDA)**

**XÜLASƏ**

Məqalədə S.Moemin “Teatr” və “Ay və qara qəpik” romanları əsasında yaradıcı fərdlərin – Culiya Lembert və Çarlz Strikləndin obrazları “antihəqiqət” arxetipi kontekstində təhlil olunur. Tədqiqatda hər iki obrazın ənənəvi sənətkar modelinə qarşı durmaları, ictimai və əxlaqi normalarla ziddiyyətli münasibətləri, postmodernist estetik prinsip və yanaşmalar fonunda araşdırılır. Culiya Lembert obrazı sənət və reallıq arasındakı sərhədləri itirərək daim maska taxan və şəxsi kimliyini performans üzərində quran ziddiyyətli sənətkar obrazı kimi təqdim edilir. Çarlz Strikland isə etik və sosial dəyərləri inkar edən, sənəti mütləq həqiqət vasitəsi kimi yox, şəxsi təcrübə və iradənin təzahürü kimi dərk edən antitipik yaradıcı subyekt kimi təhlil olunur. Y.Lotmanın sərhədlər nəzəriyyəsi kontekstində sənət-reallıq qarşılıqlı münasibətləri və şəxsiyyətin mədəniyyət sərhədlərindəki mövqeyi araşdırılır. Hər iki obrazın ironik və istehzalı təqdimatı əsasında müəllif, postmodernist ədəbiyyatda obyektiv həqiqət anlayışının deqradasiyası və çoxşaxəli subyektivliyin dominantlığı problemini önə çıxarır.

Açar sözlər: antihəqiqət, yaradıcı şəxsiyyət, sərhəd, teatr

**Исмаилова Гюнай Ариф**

**РАЗЛОЖЕНИЕ ИДЕНТИЧНОСТИ И АНТИПРАВДА В РОМАНАХ С. МОЭМА (НА ОСНОВЕ ОБРАЗОВ ДЖУЛИИ И ЧАРЛЬЗА СТРИКЛЕНД)**

**Резюме**

В статье анализируются образы творческих личностей – Джулии Ламберт и Чарльза Стрикленда – на основе романов С. Моэма «Театр» и «Луна и чёрный грош» в контексте архетипа «антиправды». В исследовании

рассматривается противопоставление обоих образов традиционной модели художника, их противоречивые отношения с социальными и моральными нормами, а также контекст постмодернистских эстетических принципов и подходов. Образ Джулии Ламберт представлен как противоречивый образ художника, который, утратив границы между искусством и реальностью, постоянно носит маску и выстраивает свою личную идентичность на перформансе. Чарльз Стрикленд анализируется как антитипичный творческий субъект, отрицающий этические и социальные ценности, воспринимающий искусство не как средство достижения абсолютной истины, а как проявление личного опыта и воли. В контексте теории границ Ю. Лотмана исследуется взаимодействие искусства и реальности, положение личности на границах культуры. На основе иронически-насмешливой подачи обоих образов автор освещает проблему деградации понятия объективной истины и доминирования многогранной субъективности в постмодернистской литературе.

**Ключевые слова: антиправда, творческая личность, граница, театр**

**Ismayilova Gunay Arif**

**THE DISINTEGRATION OF IDENTITY AND ANTITRUTH IN THE NOVELS OF S. MAUGHAM (BASED ON THE IMAGES OF JULIA AND CHARLES STRICKLAND)**

**SUMMARY**

The article analyzes the images of creative individuals - Julia Lambert and Charles Strickland - based on S. Maugham's novels "Theatre" and "The Moon and the Black Penny" in the context of the "anti-truth" archetype. The study examines the opposition of both images to the traditional artist model, their contradictory relationship with social and moral norms, and the background of postmodernist aesthetic principles and approaches. The image of Julia Lambert is presented as a contradictory image of an artist who, having lost the boundaries between art and reality, constantly wears a mask and builds his personal identity on performance. Charles Strickland is analyzed as an antitypical creative subject who denies ethical and social values, and who perceives art not as a means of absolute truth, but as a manifestation of personal experience and will. In the context of Y. Lotman's theory of boundaries, the art-reality interaction and the position of the personality on the borders of culture are examined. Based on the ironic and mocking presentation of both images, the author highlights the problem of the degradation of the concept of objective truth and the dominance of multifaceted subjectivity in postmodernist literature.

**Keywords: anti-truth, creative personality, border, theater**

**Rəyçi: prof.Quliyev Q.**